**Azərbaycan Respublikası və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı arasında sənaye inkişafı sahəsində əməkdaşlıq haqqında Memorandumu Azərbaycan Respublikası Hökuməti adından imzalama səlahiyyətinin verilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

1. Azərbaycan Respublikası və Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatı arasında sənaye inkişafı sahəsində əməkdaşlıq haqqında Memorandumu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vaqif İsmayıl oğlu Sadıqova verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumu Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının Avstriya Respublikasında Fövqəladə və Səlahiyyətli Səfiri Vaqif İsmayıl oğlu Sadıqova verilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Sənaye İnkişafı Təşkilatına müvafiq bildiriş göndərsin.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 2 iyul 2000-ci il**

**№ 461**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2944-2945.**